Kim yemək yeyib: “Əlhəmdu-lilləhil-ləzi ətaməni həzə va razəqanihi min ğeyri həvlin minni və ləə qüvvətin (Mənim tərəfimdən heç bir güc və qüvvət sərf olmadan bunu mənə yedizdirən və mənə ruzi olaraq verən Allaha həmd olsun” desə, onun keçmiş günahları bağışlanar

Səhl bin Muaz bin Ənəs atasından rəvayət edərək belə demişdir: Allahın Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurdu: "Kim yemək yeyib: “Əlhəmdu-lilləhil-ləzi ətaməni həzə va razəqanihi min ğeyri həvlin minni və ləə qüvvətin (Mənim tərəfimdən heç bir güc və qüvvət sərf olmadan bunu mənə yedizdirən və mənə ruzi olaraq verən Allaha həmd olsun” desə, onun keçmiş günahları bağışlanar".

[Həsən] [Əbu Davud, Ət-Tirmizi, İbn Məcə, Əhməd rəvayət ediblər]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) yemək yeyən kəsi Allaha həmd etməyə təşviq edir, çünki insanın Uca Allah və Onun köməyi olmadan yeməyi əldə etməyə və yeməyə gücü yoxdur. Sonra Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) bu sözləri deyəni, Allah tərəfindən ötüb-keçmiş kiçik günahlarının bağışlanmasına layiq olduğu ilə müjdələdi.

http://www.sunnah.global/hadeeth/az/show/5431